

# VAQİF QƏDİR OĞLU QƏDİROV – 65

Azırbaycan Milli Geofizika Komitəsinin, Avropa-Asiya Geofizika Cəmiyyətinin, Amerika Neftçi Geoloqlar Cəmiyyətinin Azərbaycan bölməsinin üzvü, Yer elmləri doktoru, dosent Vaqif Qədir oğlu Qədirovun 65 yaşı tamam olmuşdur.

V.Q. Qədirov1954-cü il may ayının 28-də Azərbaycan Respublikası Sabirabad rayonunun Qəzli kəndində ziyalı ailəsində dünyaya göz açmışdır.

O, 1978-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsini “Faydalı qazıntı yataqları axtarışının və kəşfiyyatının geofiziki metodları” ixtisası üzrə bitirərək dağ mühəndisi-geofizik ixtisasına yiyələnmişdir.

V.Q. Qədirov1975-ci ildən Ümumittifaq geofiziki kəşfiyyat üsulları Elmi Tədqiqat institutunun Azərbaycan filialında (Geofizika ETİ) texnik, mühəndis, elmi işçi, laborotoriya müdiri, elmi katib, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır.

2012-ci ildən təqaüdə çıxana qədər “Neftqazelmitədqiqatlayihə” institutunda laborotoriya müdiri işləmişdir.

O, 1991-ci ildə “Kompleks geofiziki məlumatlara əsasən Orta Kür çökəkliyində Mezozoy vulkanik süxurların və onların neftli-qazlılığının proqnozlaşdırılması” mövzusunda dissertasiya işini uğurla müdafiə etmiş, geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsini almışdır.

Azərbaycanın tanınmış geofizik alimlərindən olan Vaqif müəllim neft və qaz yataqlarının axtarışında qravimetrik və maqnitometrik kəşfiyyat üsullarının tətbiqinin fiziki-geoloji əsaslandırılması problemlərinin həlli ilə məşğul olmuş, lokal neftli-qazlı strukturların qravi-maqnit üsullarla aşkar edilməsi metodikasını işləyib hazırlamış və tətbiq etmişdir. Alim neft-qaz yataqlarının, o cümlədən, dərində yatan və az qalınlıqlı yataqların qravi-maqnit sahəsində əks olunmasını əsaslandırmış, yataq üzərində fiziki parametrləri ilə fərqlənən subvertikal zonanın varlığını göstərmiş, nəzəri və model tədqiqatları əsasında bu zonanın parametrlərini kəmiyyətcə qiymətləndirmişdir. V.Q. Qədirov bu işlərlə yanaşı, Yer qabığı ilə əlaqədar bir sıra geodinamik proseslərin başvermə qanunauyğunluqlarının və neftveriminə təbii təsirlərin öyrənilməsi məsələləri üzrə də tədqiqatlar aparır. V.Q. Qədirov 2014-cü ildə doktorluq dissetasiyası işini müvəffəqiyyətlə müdafiə etmiş və Yer elmləri üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.

V.Q. Qədirov 150-dən artıq elmi işin, o cümlədən müxtəlif ölkələrdə (Azərbaycan, Rusiya, Türkiyə, Ukrayna, ABŞ, İtaliya, Polşa) çap edilmiş 100-dən artıq elmi əsərin, 1 ixtira və 1 patentin, 4 monoqrafiyanın, 40-a yaxın elmi hesabatın, axtarış-kəşfiyyat işlərini istiqamətləndirmək üçün istehsalata verilmiş 10 tövsiyənin müəllifi və həmmüəllifidir.

Vaqif müəllim BDU-də “Seysmologiya və Yer təkinin fizikası” kafedrasında pedaqoji fəaliyyətlə məşğul olur, bilik və bacarığını gənclərə həvəslə öyrədir.

V.Q. Qədirov göstərilən bu elmi fəaliyyəti ilə yanaşı, ədəbiyyat və incəsənət sahəsində də uğurla fəaliyyət göstərir. Onun 2014-cü ildə “Yarpaqlar” adlı kitabı dərc olunmuşdur; bu kitabda müəllifin müxtəlif illərdə yazdığı müxtəlif səpkili hekayələri, şerləri, aforizimləri və musiqi notları da yer almışdır. Onun tərtib etdiyi və 1989-cu ildə “Elm və həyat” jurnalında dərc etdirdiyi “Daimi təqvim” 4000 illik dövrü əhatə edən və analoqu olmayan bir nailiyyətdir.

Şərəfli həyat yolu keçmiş V.Q. Qədirov istedadlı mütəxəssis, təcrübəli neftçi-geofizik olmaqla yanaşı qayğıkeş ailə başçısı, səmimi dost, xeyirxah insandır. Buna görə də çalışdığı kollektivlərdə həmişə özünə dərin hörmət və ehtiram qazanmışdır.

V.Q.Qədirov bu gün də öz elmi tədqiqatlarını və ədəbi yaradıcılığını davam etdirməkdədir.

Həmkarları, dostları və onu tanıyanlar arasında böyük nüfuza malik Vaqif müəllimə möhkəm can sağlığı, uzun və şərəfli ömür, Azərbaycanda geofizikanın inkişafı naminə apardığı tədqiqatlarda uğurlar arzulayırıq!

***SOCAR Geofizika və Geologiya İdarəsi***
***Azərbaycan Milli Geofizika Komitəsi İB***
***“Azərbaycanda Geofizika Yenilikləri” jurnalının redaksiya heyəti***